**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti**
**Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar korporativ hədiyyələrin alınması məqsədilə açıq müsabiqə elan edir.**

**I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:**

● Müsabiqədə iştirak haqqında müraciət (*forma əlavə olunur*);

● İddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış – bütün dəyişiklik və əlavələrlə birlikdə) müəssisə möhürü ilə təsdiqlənmiş surətləri, vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış, bank rekvizitləri və maddi-məsul şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti, sertifikat (və / və ya mal, iş və ya xidmət ilə bağlı lisenziya və s. tələb olunursa);
●Müsabiqə təklifi.

***Qeyd:*** *Təqdim edilməli bütün sənədlərin imza, müəssisə möhürü, tarix və “əsli ilə düzdür” ifadəsi olmalıdır*

İlkin mərhələdə müsabiqədə iştirak haqqında müraciət və adları qeyd olunmuş hüquqi sənədlər *(müsabiqə təklifi istisna olmaqla)* **18 dekabr 2023-cü il** saat 17:00-dək, iştirak haqqında müraciəti və hüquqi sənədləri (*imzalı, möhürlü*) qeyd olunan vaxta qədər təqdim etmiş iddiaçılar tərəfindən müsabiqə təklifləri (əsli) bağlı zərfdə **19 dekabr 2023-cü il** saat 17:00-a qədər “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin yerləşdiyi ünvana (*Nəsimi rayonu, Ü.Hacıbəyov 140, AZ1010*) təqdim olunmalıdır.
Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan **geri qaytarılacaqdır.**

**II. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:**

Zərflərin açılışı **20 dekabr 2023-cü il** tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın I bölməsində göstərilmiş ünvanda baş tutacaqdır.

**Zərflərin açılışında iştirak etmək istəyən şəxslər barədə öncədən təmsil edəcəyi müəssisə tərəfindən əlaqələndirici şəxsin elektron ünvanına məlumat göndərilməlidir (şəxsiyyət vəsiqəsinin “scan”-ı). İştirakı nəzərdə tutulan şəxsin şəxsiyyət vəsiqəsi və etibarnamə üzərində olmalıdır.*
**Komissiyanın qərarı bildiriş məktubu olaraq bütün iştirakçılara göndərilir.*

**Əlaqələndirici şəxs:**

Elnarə Sərdarova - Satınalmalar şöbəsinin aparıcı mütəxəssisi
Əlaqə nömrəsi: +994 12 599 00 03 (3704) , +99455 206 24 70
Elektron ünvan: **esardarova@portofbaku.com**

*(İddiaçının rəsmi blankında)*

**AÇIQ MÜSABİQƏDƏ (KOTİROVKA SORĞUSU) İŞTİRAK ETMƏK ÜÇÜN**

**MÜRACİƏT MƏKTUBU**

___________ şəhəri "__"_______20_-cü il

___________№

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin**
**Satınalma Komissiyasının Sədri**
**cənab S.Ismayılova**

Hazırkı məktubla *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* olaraq ""Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti "Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar korporativ hədiyyələrin alınması" ilə əlaqədar "6" dekabr 2023-cü il tarixdə elan edilmiş açıq müsabiqədə (kotirovka sorğusunda) iştirak niyyətimizi təsdiq edirik.

Eyni zamanda *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* ilə münasibətdə hər hansı ləğv etmə və ya müflislik prosedurunun aparılmadığını, fəaliyyətinin dayandırılmadığını, əmlakı üzərində həbsin qoyulmadığı, ödənişə yönəlmiş girovun olmadığını və sözügedən satınalma müsabiqəsində iştirakını qeyri-mümkün edəcək hər hansı bir halın mövcud olmadığını təsdiq edirik.

Əlavə olaraq, təminat veririk ki, *(iddiaçı malgöndərənin (podratçının) tam adı göstərilir)* "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən hüquqi, maliyyə və təşkilati asılılığı olan şəxs deyildir.

Tərəfimizdən təqdim edilən sənədlər və digər məsələlərlə bağlı yaranmış suallarınızı cavablandırmaq üçün əlaqə:

- Əlaqələndirici şəxs:
- Əlaqələndirici şəxsin vəzifəsi:
- Telefon nömrəsi:
- E-mail:

________________________________ ______________________
*(səlahiyyətli şəxsin A.A.S)* *(səlahiyyətli şəxsin imzası)*

________________________________
*(səlahiyyətli şəxsin vəzifəsi)* ***M.Y.***